# Ünlü qarabağlıların ipək obrazları

**Nizami Kino Mərkəzində Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə "Qarabağın çizgiləri" layihəsi çərçivəsində eyniadlı sərginin açılışı olub.**




Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova ipək yaylıqlar üzərində çəkdiyi rəsm əsərlərində Qarabağ bölgəsindən olan 22 görkəmli şəxsiyyətin portlerinin əks olunduğunu dedi. Bildirdi ki, bu əsərlər vasitəsilə onların doğulduğu məkan, həyat və yaradıcılıqları haqqında məlumatlarla tanış olmaq mümkündür.

Sərginin açılışından sonra Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən hazırlanmış, XIX əsr Azərbaycanın görkəmli qadın şairi, sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvana həsr olunmuş "Şuşanın tək incisi" adlı sənədli film nümayiş olundu. Fondun dəstəyi ilə ərsəyə gəlmiş ekran işi 2023-cü ildə Natəvanın 190 illiyinin qeyd olunması və Şuşanın "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi ilə əlaqədar hazırlanmış, dünyanın müxtəlif ölkələrində nümayiş olunmuşdur. Filmin ideya müəllifi Türk Mədəniyyəti və İrsi Fondunun ilk prezidenti Günay Əfəndiyeva, ssenari müəllifi Ülviyyə Heydərova, quruluşçu rejissoru Zəhra Quliyevadır.



Qeyd edək ki, fond tərəfindən təşkil olunmuş bu layihələr 28 May Azərbaycanın Müstəqilliyi Günü münasibətilə həyata keçirilir. Bu cür tədbirlərin Qarabağın və onun görkəmli şəxsiyyətlərinin irsinin beynəlxalq auditoriyalara çatdırılmasında xüsusi rolu var.

***Fidan SALMANOVA,***
***Elşən AĞALAROV (foto)***
***XQ***

Xalq qəzeti .- 2024.- 30 may, № 112.- S.14.